Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kütləvi proqramlar elm və təhsilin inkişafında necə təsir rolu oynayır...

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

**Vətən müharibəsində Azərbaycanın qələbəsindən sonra davamlı olaraq elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması üzərində ciddi şəkildə işlərin aparılması zəruridir. Çünki cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə hələ də davam edir və edəcək də. Bunun üçün istər Azərbaycan cəmiyyəti, istərsə də bütövlükdə dünya ictimaiyyəti hərtərəfli informasiya ilə təmin edilməlidir. Bu səbəbdən də elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsinə, hətta yenilərinin belə hazırlanması öz aktuallığını qoruyur.**

Qələbənin təmin olunmasından sonra, az qala 30 ilə yaxın bir müddətdə işğal altında saxlanılan torpaqlarımızda ermənilərin hansı vandallıqları törətdiyinin bir daha şahidi olduq. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün proqramların hazırlanmasında mütəxəsis yanaşması, eləcə də rəyi mütləq nəzərə alınmalı, ailmlərin, mədəniyyət xadimlərinin, uyğun sahənin ekdpertlərinin imkan və potensialından istifadə edilməlidir. Bu istiqamətdə əldə edəcəyimiz uğurlar qazandığımız zəfərdən sonra daxil olduğumuz yeni mərhələdə, post-konfilikt dövründə və bundan sonra həmrəyliyimizin və birliyimizin daha da güclənməsinə öz ciddi töhvəsini vermiş olacaq. Həmçinin dünya ictimaiyyətinin Qarabağla bağlı həqiqətlər barədə bundan sonra da məlumatlandırılması öz aktuallığın qoruyur. İşğaldan azad olunan ərazilərin Azərbaycana məxsus olması, eləcə də Qarabağı ermənilərin necə talan etdiyi barədə, həmin əraziləri işğalda saxladıqları dövrdə viran qoyduğu, daşı-daş üstə qoymadığı, tarixi, mədəni və dini abidələrimizi nankor ermənilərin talan etməsi barədə bütün dünya ictimaiyyəti məlumatlandırılmalıdır. Bir xalq olaraq tarixi və milli-mədəni irsimizə sahib çıxmalı, bu irsi qorumalı, onu inkişaf etdirməliyik.

### İstanbulda "Zəfər Media Medalı" tədbiri

Təbiidir ki, belə tədbirlərin təşkili və bu həqiqətlərin dünyaya çatdırılmasında media işçilərinin üzərinə böyük yük düşür. İctimai Siyasi Proseslər Beynəkxalq Əlaqələr Mərkəzi (İSBAM) Türkiyədə məhz bu mövzunu əhatə edən ciddi tədbir keçirib. Həmin təşkilatın sədri Samir Adıgözəlli bizimlə söhbətində bildirdi ki, "Zəfər Media Medalı"nı təsis etdik və ilk olaraq müharibə zamanı Azərbaycana gəlib informasiya hazırlayan, fədakarcasına çalışan Türk mediası və vətəndaş cəmiyyətinin fəaliyyətini araşdırdıq:

"Azərbaycan mediasının da dəyərli təmsilçilərinə təltiflərimizlə bağlı tədbirimiz olacaq. Qeyd edim ki , Azərbaycan mediasını İSBAM olaraq 2021-ci ilin fevral ayının 12 də Ağdamda "Zəfər Media Mükafatı" ilə təltif etmişik".

İSBAM sədrinin sözlərinə görə, İstanbulda 44 günlük Vətən müharibəsinin ildönümü ve "Şuşa ili"nə həsr olunan tədbir keçiriblər.

Mərkəz tərəfindən təşkil olunan tədbirdə Vətən müharibəsi dövründə Türkiyə mediasının Azərbaycana informasiya dəstəyi göstərən nümayəndələrinə "Zəfər Media" medalları təqdim edilib.

Tədbir iştirakçılarını salamlayan ölkəmizin İstanbuldakı baş konsulu Zaur Allahverdizadə Azərbaycanın 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusunun şanlı Zəfərə imza atdığını xatırladıb.

Bildirilib ki, bunun nəticəsində Azərbaycanın tarixi torpaqları azad edildi və bu torpaqlarda yenidən üçrəngli şanlı bayrağımız dalğalandı. Vətən müharibəsi dövründə Azərbaycan təkcə döyüş meydanında deyil, həm də erməni yalanlarına qarşı mediada mübarizə apardı. Türkiyə dövləti və xalqı kimi, mediası da bu dövr ərzində daima Azərbaycanın yanında oldu. Tədbirdə çıxış edən İstanbulda fəaliyyət göstərən Hüseyn Cavid adına məktəbin direkrotu Şərqiyə Məmmədova və İSBAM-ın sədri Samir Adıgözəlli torpaqlarımızın 30 il davam edən işğalı, Azərbaycanın 44 günlük Vətən müharibəsi və bu müharibə nəticəsində qazanılan şanlı Zəfərimiz barədə danışıblar.

Medalla Türkiyənin "Anadolu Agentliyi", "TRT Haber", "Haber Global", "ATV", "DHA", "NTV", "CNN Türk", "A Haber", "Habertürk", "TRT", "TV100", "Süperhaber TV", "Bengü Türk", "Al Araby Tv" kanalları və "Sabah" ilə "Hürriyət" qəzetlərinin əməkdaşları təltif olunublar. Mükafatçılardan "TV100" telekanalının əməkdaşı Ali Burak Ersemiz medalı şəhid jurnalistlər, AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov adına aldığını bildirib".



Hesab edirik ki, bu cür tədbirlərin hazırlanması Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istəyən jurnalistlərə əlavə həvəs və stimul verir.

### İKT-nin inkişafı elmi-kütləvi, mədəni-maarif tədbirlərinə yol açır…

Sevindirici haldır ki, elmi-kütləvi, mədəni-maarif, təhsil proqamları və onların inkişaf etdirilməsi, təşviqi üçün elmi-texniki tərəqqi,ələlxüsus internet şəbəkəsinin mövcudluğu böyük spektrdə imkanlar açır. Bu proqramların daha geniş, daha əhatəli yayılması üçün kifayət qədər böyük imkanlar mövcuddur. İndi internet resursları vasitəsi ilə həmin proqramların daha da geniş şəkldə canlandırılması mümkündür ki, buna xüsusi diqqət ayrılmalıdır. İnternet resurslarının hələ olmadığı bir dövrdə kitabxanalarda, mədəni-maarif ocaqlarında, klublarda, mədəniyyət və yaradıcılıq evlərində olduqca maraqlı kütləvi tədbirlər, tamaşalar, filmlər təqdim edilirdi. Biz müasir İKT-nin verdiyi imkanlardan istifadə edib belə tədbirləri daha səmərəli təşkil etməliyik.

### Ali təhsilin maliyyələşdirilməsi 2019-2023-cü illər üçün nəzərdə tutulmuş proqram əsasında həyata keçirilir

Dövlətimiz tərəfindən xaricdə təhsil almaq istəyənlər üçün də şərait yaradılıb. Gənclərin xaricdə təhsil alması üçün əsas maneələrindən biri olan maddi çatışmazlıqların və bu cür çətinliklərin öhtəsindən gəlmək üçün mümkün yollardan biri xarici hökumətlər və universitetlər tərəfindən təklif edilən təqaüd proqramlarının imkanlarından yararlanmaqdır və Azərbaycan hökuməti tərəfindən təsis edilmiş xaricdə təhsil üzrə dövlət proqramı da gənclərin xaricdə təhsil alması üçün gərəkli maliyyə yardımı almasının təminatçısıdır. Hazırda ali təhsilin maliyyələşdirilməsi aktiv olaraq 2019-2023-cü illər üçün nəzərdə tutulmuş proqram əsasında həyata keçirilir. Həmin Dövlət Proqramı çərçivəsində hədəf isə ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texologiyalarından faydalanaraq, Azərbaycanda yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ölkəmizin ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

**Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resurslarının inkişaf etdirilməsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da öz əksini tapır.**

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**